**TƏSDİQ EDİLMİŞDİR:**
**AGF-nin İcra Komitəsinin**
22 sentyabr 2025 **Qərarı ilə**

**AGF-nin vitse-prezidenti Altay Həsənov**

# "Azərbaycan Gimnastika Federasiyası" İctimai Birliyinin

# ÖLKƏ ƏRAZİSİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN İDMAN KLUBLARINDA GİMNASTİKA NÖVLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ QAYDALARI

**AGF 2025**

## 1. Ümumi müddəalar

1.1. ““Azərbaycan Gimnastika Federasiyası” İctimai Birliyinin ölkə ərazisində fəaliyyət göstərən idman klublarında gimnastika növlərinin qiymətləndirilməsi Qaydaları” (bundan sonra – Qaydalar), gimnastika klublarının fəaliyyətinin AGF tərəfindən müəyyən edilmiş meyarlara uyğunluğunun qiymətləndirilməsi, zal infrastrukturunun funksionallıq baxımından yararlılığının təmin olunması, klublarda idmançıların fiziki təhlükəsizliyinin və psixoloji rifahının qorunması, eləcə də etik davranışla bağlı AGF-nin daxili normativ sənədlərinə riayət edilməsini təmin etmək məqsədi daşıyır.
1.2. Bu Qaydalar, Azərbaycan Respublikasının “Bədən tərbiyəsi və idman haqqında” Qanununun 11.1.2-ci maddəsi əsasında, həmin Qanun, AGF-nin Nizamnaməsi, AGF-nin Texniki Reqlamenti, Gimnastikada təhlükəsiz mühitin təminatı və iştirakçıların şəxsiyyətinin qorunması üzrə Qaydaları (“Safeguarding”), Etika Qaydaları, İntizam Qaydaları, habelə AGF tərəfindən qəbul edilmiş aidiyyəti daxili normativ sənədlər nəzərə alınaraq tərtib olunmuşdur.
1.3. Bu Qaydalar, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və AGF ilə əməkdaşlıq etmək niyyətində olan bütün klublara şamil olunur.

## 2. Müraciət prosesi

2.1. AGF tərəfindən idman klubunun qiymətləndirilməsi məqsədilə müraciət edən hüquqi şəxslər Federasiyanın rəsmi internet səhifəsində yerləşdirilmiş bu Qaydaya 1 nömrəli Əlavə olan “Müraciət forması”nı elektron şəkildə əldə edə bilərlər. Müraciət forması AGF tərəfindən zərurət olduqda yenilənə bilər və müraciət edən şəxslərin müraciət zamanı Federasiyanın rəsmi internet səhifəsində yerləşdirilmiş ən son versiyadan istifadə etmələri zəruridir.
2.2. Müraciət formasında aşağıdakı məlumatların Federasiyaya təqdim edilməsi tələb olunur:

- Nizamnamə (və ya əsasnamə) (notarial qaydada təsdiq olunmuş);
- Hüquqi şəxslərin dövlət reyestrindən çıxarış;
- Klubun rəhbərinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
- Vergi ödəyicisi kimi qeydiyyat sənədi (VÖEN);
- Klubun fəaliyyəti ilə bağlı ümumi təqdimat materialı;
- Məşqçi heyətinin siyahısı və onların ixtisas sənədlərinin (diplom, AGF-nin müvafiq sahədə təqdim etdiyi lisenziyaları və s.) surətləri;
- İdmançı siyahısı və yaş qrupları üzrə bölgüsü;
- Zal(lar) barədə ilkin məlumat – yerləşmə ünvanı, sahəsi, texniki şəraitin ümumi təsviri, fotoşəkillər;
- Klubun fəaliyyət göstərdiyi gimnastika növü/növləri.

Tələb olunan sənədlər müraciət forması ilə birlikdə təqdim edilməlidir. Sənədlərin surətləri aydın, tam və qüvvədə olan formada olmalıdır. Zəruri hallarda AGF həmin sənədlərin əsllərinin təqdim olunmasını tələb edə bilər.
2.3. Qiymətləndirilmə üçün müraciət yalnız klubun səlahiyyətli nümayəndəsi (rəhbəri və ya səlahiyyət verilmiş şəxs) tərəfindən imzalanır. Müraciət forması doldurulub imzalandıqdan sonra aşağıdakı şəkildə təqdim olunmalıdır:

- Doldurulmuş, imzalanmış və möhürlənmiş müraciət forması;

- Əlavə olunmuş tələb olunan sənədlərin surətləri.

Müraciət tam şəkildə info@agf.az elektron poçt ünvanına göndərilir.

2.4. Təqdim edilən müraciət sənədləri daxil olduqdan sonra müraciət 14 (on dörd) iş günü ərzində ilkin qiymətləndirmədən keçirilir. Bu mərhələdə təqdim olunmuş sənədlərin tamlığı və müraciət formasının düzgün doldurulması yoxlanılır. Əgər sənədlər natamam olarsa və ya formanın doldurulmasında əhəmiyyətli uyğunsuzluqlar aşkar edilərsə, bu barədə müraciət edən tərəfə rəsmi bildiriş göndərilir və uyğunsuzluqların aradan qaldırılması üçün əlavə 10 (on) iş günü müddət verilir. Müvafiq düzəlişlər müəyyən olunmuş müddətdə yerinə yetirilmədiyi təqdirdə, müraciətin baxılmadan saxlanılması və ya nəzərdən keçirilməsinin dayandırılması barədə qərar qəbul oluna bilər.

2.5. İlkin baxışdan uğurla keçən müraciətlər komissiyaya yönləndirilir və baxış mərhələsinə keçid alır.

## 3. Yoxlama proseduru

3.1. Klubun qiymətləndirilməsi məqsədilə AGF tərəfindən təqdim olunmuş müraciət əsasında kluba baxış keçirmək üçün Komissiya formalaşdırılır. Komissiyanın tərkibi İcra Komitəsinin qərarı əsasında təsdiq olunur. İcra Komitəsinin müvafiq qərarında Komissiyanın struktur tərkibi fəaliyyət sahələrinə uyğun vəzifə kateqoriyaları əsasında müəyyən edilir. Komissiyanın tərkibində ən azı hüquq, idman, təhlükəsizlik və texniki sahələr üzrə mütəxəssislər yer almalıdırlar. Hər baxış üçün Komissiyanın konkret tərkibi və üzvlərin siyahısı Federasiyanın Baş katibi tərəfindən əmrlə rəsmiləşdirilir.

3.2. Komissiyanın səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Klubun təqdim etdiyi məlumat və sənədlərin faktiki vəziyyətlə uyğunluğunu yoxlamaq;
- İdman zal(lar)ına baxış keçirmək və təhlükəsizlik, texniki avadanlıq və şəraitin müvafiq gimnastika növünə uyğunluğunu qiymətləndirmək;
- Məşq prosesinin təşkili, məşqçi heyətinin ixtisas səviyyəsi və klubun təlim-məşq fəaliyyətində iştirak edən digər mütəxəssislərin (xoreoqraf, həkim, psixoloq və s.) peşə hazırlığı ilə bağlı ilkin qiymətləndirmə aparmaq;
- Baxış nəticələrini sənədləşdirmək və imzalanmış hesabat şəklində Federasiyaya təqdim etmək.

3.3. Komissiya, müraciətin ilkin qiymətləndirilmə mərhələsində uyğun hesab olunması barədə klubun rəsmi nümayəndəsinə yazılı bildiriş göndərildikdən sonra, 30 (otuz) iş günü ərzində yerində yoxlamanı həyata keçirir.

3.4. Klubun qiymətləndirilməsi məqsədilə aparılan baxış zamanı qiymətləndirmə iki əsas istiqamət üzrə həyata keçirilir:

- Ümumi tələblər - bu tələblər klubun hüquqi, inzibati və təşkilati fəaliyyətini əhatə edir;
- Texniki tələblər – zalın ümumi texniki xüsusiyyətləri və avadanlıqlarla bağlı tələbləri; başlanğıc səviyyəli məşqlər və yarışlarda gimnastlarla təmsil olunduqda, hər bir gimnastika növü üzrə avadanlıqlarla bağlı minimim tələblər.

3.5. Ümumi tələblər üzrə qiymətləndirmə aşağıdakı istiqamətləri əhatə edir:

3.5.1. Ümumi tələblər:

3.5.1.1. Gimnastika növ(lər)i, onların sayı;

3.5.1.2. Gimnastika növlərinə görə uşaqların sayı;

3.5.1.3. Məşq cədvəli;
3.5.1.4. Yaş qrupları və qruplardakı uşaqların sayı. Qaydalara əsasən başlanğıc səviyyəli məşqlərdə hər qrupda ən çoxu 15 uşaq, yarışlarda iştirak edən gimnastlar qrupunda isə ən çoxu 8 uşaq olmalıdır. Yarışlar dedikdə, AGF-nin Texniki Reqlamentinə əsasən rəsmi AGF yarışları və ya AGF-nin keçirdiyi və ya tanıdığı yarışlar nəzərdə tutulur;
3.5.1.5. Məşqçilərin sayı və qruplar üzrə bölgüsü;
3.5.1.6. Xoreoqrafların sayı və qruplar üzrə bölgüsü;
3.5.1.7. Klubun illik inkişaf planı;
3.5.1.8. Klubun qeydiyyat sənədləri;
3.5.1.9. Mülkiyyətində və ya sahibliyində olan zalın mülkiyyət hüququnu təsdiq edən sənədlər və ya zalın icarəsi üzrə müqavilə;
3.5.1.10. Məşqçi diplom(lar)ı;
3.5.1.11. Məşqçi lisenziya(lar)ı;
3.5.1.12. Xoreoqraf diplom(lar)ı;
3.5.1.13. Həkim diplom(lar)ı;
3.5.1.14. Psixoloq (mövcud olduqda) diplomu;
3.5.1.15. İşin təşkili (işçilərin siyahısı və vəzifələri);
3.5.1.16. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun 60.1-ci maddəsinə əsasən bədən tərbiyəsi ilə məşğul olan şəxslər, idmançılar, idman hakimləri, məşqçilər, bədən tərbiyəsi və idman sahəsində digər mütəxəssislərin peşəkar (əmək) fəaliyyətləri ilə əlaqədar “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada sığorta edilməsi;
3.5.1.17. Ümumi girişə nəzarət etmək üçün ən azı bir mühafizəçi və ya nəzarətçi olmalıdır. Ərazinin, binanın, zalın, məşq meydançalarının, yardımçı otaqların (mətbəx, şkaf və s.) təhlükəsizliyinə və ərazi təhlükəsizliyinə nəzarət etmək üçün videomüşahidə sistemi (CCTV) — (arzuolunandır) paltardəyişmə otaqlarının və sanitar qovşaqların girişlərində quraşdırılmalıdır;
3.5.1.18. SƏTƏM tələbləri (sağlamlıq, əməyin mühafizəsi, ətraf mühitin mühafizəsi) və yanğın təhlükəsizliyi qaydalarına uyğun olaraq, zal müvafiq siqnalizasiya sistemi, yanğınsöndürmə vasitələri ilə təmin olunmalıdır. Bina üçün yanğın təhlükəsizliyi planı, zaldan, binadan çıxış yolları, əməyin mühafizəsi qaydaları işlənib hazırlanmalıdır;
3.5.1.19. Məşq zamanı ən azı bir ilk tibbi yardım göstərən həkim olmalıdır. Bu say eyni vaxtda bir və ya bir neçə gimnastika növü ilə məşğul olan gimnastların sayına müvafiq olaraq dəyişə bilər.
3.5.1.20. İlkin yardım üçün ləvazimatların mövcudluğu (şin və immobilizator dəstləri, qan təzyiqi ölçən aparat, buz dolabları, zəruri tibbi medikamentləri olan dərman qutusu və s.) vacibdir. İlkin tibbi yardım ləvazimatlarının (qan təzyiqi ölçən aparat, zəruri dərman preparatları olan ilk tibbi yardım dəsti (mütləqdir), təkər və immobilizator dəstləri, buz şkafları (arzuolunandır) və s.) olması vacibdir;
3.5.1.21. İdmançıların ildə iki dəfə tibbi müayinə haqqında sağlamlıq arayışı (qanın ümumi analizi; sidiyin ümumi analizi; nəcisin ümumi analizi; HBs-Ag (kart test), Anti-HCV (kart test); Exo-KQ; döş qəfəsinin və onurğa sütununun rentgenoskopiyası; idman həkiminin və ya terapevtin müayinəsi; (ehtiyac olduqda: skaner cihazı ilə onurğa

sütununun 3D analizi (3D Body scanning); podoloqun müayinəsi (yastıpəncəliyin diaqnostikası)) olmalıdır;
3.5.1.22. İlk dəfə məşqlərə qəbul edilən idmançılar həkim tərəfindən idmanla məşğul olmağa icazə verilməsi barədə klinikanın möhürü ilə təsdiqlənmiş tibbi arayış təqdim etməlidir;
3.5.1.23. Paltardəyişmə otaqları kişi (böyüklər və uşaqlar) və qadınlar (böyüklər və uşaqlar) üçün ayrı olmalıdır. Mümkün olduqda, uşaqlar (14 yaşa qədər) bu otaqlardan istifadə etdiyi zaman böyüklərin (14 yaşdan yuxarı) istifadəsi məhdudlaşdırılmalıdır;
3.5.1.24. Duş kabinləri kişi (böyüklər və uşaqlar) və qadınlar (böyüklər və uşaqlar) üçün ayrı olmalıdır. Mümkün olduqda, uşaqlar (14 yaşa qədər) bu kabinlərdən istifadə etdiyi zaman böyüklərin (14 yaşdan yuxarı) istifadəsi məhdudlaşdırılmalıdır;
3.5.1.25. Sanitar qovşaqları kişi (böyüklər və uşaqlar) və qadınlar (böyüklər və uşaqlar) üçün ayrı olmalıdır. Mümkün olduqda, uşaqlar (14 yaşa qədər) üçün qovşaq ayrılmalıdır;
3.5.1.26. İdman zalı və ona bitişik köməkçi otaqların (məsələn, paltardəyişmə, duş, sanitar qovşaqlar və s.) gigiyenik vəziyyəti daima təmiz və sanitariya norma və qaydalarına uyğun saxlanılmalıdır.
3.6. Texniki tələblər üzrə qiymətləndirmə bu Qaydalara əlavə olunmuş 2 nömrəli Əlavə əsasında aparılır. Klub gimnastika növləri üzrə məşq prosesi, onun keçirildiyi məkan, alət və avadanlıqların risk baxımından qiymətləndirilməsi üzrə məsuliyyət daşıyır. Risk dəyərləndirilməsinin sağlamlıq və təhlükəsizlik baxımından həyata keçirilməsi mütləqdir.

3.7. Yoxlama tamamlandıqdan sonra komissiya hər klub üzrə hesabat hazırlayır. Hesabatda aşağıdakılar öz əksini tapır:

- Klub haqqında ümumi məlumat (ad, ünvan, gimnastika növü, qiymətləndirilmə növü);
- Komissiyanın baxış tarixi və iştirakçıları;
- Yoxlamanın nəticələri üzrə hər meyar sahəsində uyğunluq dərəcəsi və əsaslandırılmış qeyd;
- Uyğunsuzluqlar və tövsiyələr (əgər varsa);
- Klubun tanınıb, tanınmaması barədə nəticə və yekun tövsiyə.

3.8. Komissiya tərəfindən hazırlanmış hesabat əsasında, qiymətləndirilmə ilə bağlı yekun qərar AGF-nin İcra Komitəsinin növbəti keçiriləcək ilk iclasında qəbul olunur. Qəbul edilmiş qərar kluba yazılı bildiriş formasında təqdim edilir.
3.9. Klub, qiymətləndirmə ilə bağlı verilmiş qərarla razı olmadıqda, həmin qərarın təqdim edildiyi tarixdən etibarən 10 (on) iş günü müddətində AGF-nin İcra Komitəsinə müraciət etməklə rəsmi şəkildə şikayət verə bilər.
3.10. Şikayət yalnız klubun səlahiyyətli nümayəndəsi tərəfindən yazılı şəkildə təqdim olunmalıdır. Şikayət məktubunda aşağıdakılar göstərilməlidir:

- Müraciət edən klubun adı, hüquqi ünvanı və əlaqə məlumatları;
- Qiymətləndirmə ilə bağlı qəbul olunmuş qərarın tarixi və mahiyyəti;
- Qərarın hansı əsaslarla qeyri-qənaətbəxş hesab edildiyi;
- Əlavə sənədlər və sübutlar (əgər mövcuddursa);
- Klubun şikayət üzrə gözləntiləri (yenidən qiymətləndirmə, qərarın dəyişdirilməsi və s.).

3.11. Şikayətin baxılması müddətində klubun müsbət qiymətləndirilməməsi statusu qüvvədə qalır.
3.12. Əgər klub eyni və ya oxşar xarakterli nöqsanlar üzrə bir neçə dəfə müsbət qiymətləndirilməmişsə və bu hallarla bağlı əvvəlki hesabatlarda klubun tanınmaması müəyyən edilmişdirsə, həmin klub tərəfindən təkrarən təqdim olunmuş eyni məzmunlu müraciətlər AGF tərəfindən baxılmamış saxlanıla bilər. Bu halda klub yalnız əvvəlki nöqsanların aradan qaldırıldığını sübut edən əsaslı dəyişiklikləri təqdim etdikdə yenidən qiymətləndirilmə proseduruna cəlb oluna bilər.

**4. Qiymətləndirilmə statusunun müddəti**

4.1. AGF tərəfindən verilmiş klubun tanınması statusu müddətsizdir.
4.2. Qiymətləndirilmənin nəticəsinin qüvvədə qalması üçün klub, bu Qaydaların müddəalarına və müvafiq qiymətləndirilmə növünə aid texniki və təşkilati tələblərə davamlı şəkildə riayət etməlidir.
4.3. Klubun fəaliyyətində texniki və ya inzibati dəyişikliklər baş verdiyi halda (məsələn, zalın dəyişdirilməsi, hüquqi statusda dəyişiklik və s.), bu barədə 7 (yeddi) iş günü müddətində AGF-yə yazılı məlumat verilməlidir. AGF zəruri hesab etdikdə, belə dəyişiklikləri məlumat verildiyi tarixdən etibarən 30 (otuz) iş günü ərzində Komissiya vasitəsilə yerində yoxlama apara bilər.

**5. Qiymətləndirilmədən sonra monitorinq və təkrar baxış**

5.1. Klubun fəaliyyətində baş verən dəyişikliklərin izlənməsi məqsədilə AGF tərəfindən təqvim ili ərzində azı 1 (bir) dəfə təkrar qiymətləndirmə aparıla bilər. Bu qiymətləndirmə müvafiq texniki, inzibati və təhlükəsizlik göstəricilərinin qorunub saxlanılması şərti ilə, ilkin mərhələdə tətbiq olunmuş proses və meyarlara əsasən həyata keçirilir.
5.2. Əgər aparılmış təkrar baxış zamanı klubun fəaliyyətində müəyyən uyğunsuzluqlar aşkarlanarsa, onların xarakterindən asılı olaraq aşağıdakı tədbirlər tətbiq oluna bilər:
5.2.1. Əgər klubun fəaliyyətində kiçik xarakterli pozuntular və texniki uyğunsuzluqlar müəyyən edilərsə:

- Komissiya tərəfindən kluba yazılı xəbərdarlıq təqdim olunur;
- Uyğunsuzluqların aradan qaldırılması üçün kluba 30 (otuz) təqvim günü müddət verilir;
- Müəyyən olunmuş müddət başa çatdıqdan sonra AGF tərəfindən təkrar yoxlama həyata keçirilə bilər.

5.2.2. Əgər klubun fəaliyyətində ciddi pozuntular aşkar edilərsə, bu zaman:

- Klubun qiymətləndirilmə statusunun müvəqqəti dayandırılması və ya ləğv olunması barədə qərar qəbul edilə bilər;
- Klubla AGF arasındakı əməkdaşlıq dayandırılır və bu barədə kluba yazılı bildiriş təqdim olunur.

**6. Məsuliyyət və öhdəliklər**

6.1. Klubun qiymətləndirilməsi statusu aşağıdakı hallarda AGF tərəfindən ləğv oluna bilər:

a) Klub tanınma statusu əldə etdikdən sonra, təqvim ili ərzində AGF tərəfindən təşkil edilən rəsmi yarışlarda (tədbirlərdə) heç bir idmançı ilə iştirak etmədiyi halda;
b) Klubun fəaliyyətində yenidən qiymətləndirməyə ehtiyac yaradan hər hansı dəyişiklik (məşqçi heyətində əsaslı dəyişiklik, zalın ölçüləri və texniki imkanlarının dəyişməsi və s.) barədə AGF-yə yazılı məlumat verilmədikdə;
c) Klub və ya onu təmsil edən şəxslər, habelə klub rəhbərliyi tərəfindən AGF-nin daxili normativ sənədlərində (daxili qaydalar, təlimatlar, davranış qaydaları, “safeguarding” qaydaları və s.) nəzərdə tutulmuş tələblərə sistemli şəkildə riayət olunmadıqda;
d) Klub tərəfindən AGF-yə təqdim olunmuş sənədlərdə və məlumatlarda uyğunsuzluqlar, saxta və ya düzgün olmayan məlumatlar aşkar edildikdə;
e) Klub AGF ilə daimi əlaqəni təmin etmək məqsədilə rəsmi nümayəndə (menecer) təyin etmədikdə və ya bu barədə yazılı məlumat təqdim etmədikdə;
f) Klub AGF-yə hər rüb üzrə müəyyən edilmiş forma əsasında idmançı sayı (lisenziyalı və lisenziyasız), qrupların sayı və digər müvafiq göstəricilər barədə hesabat təqdim etmədikdə;
g) Klub tərəfindən klublararası və ya beynəlxalq yarışların keçirilməsi AGF-nin əvvəlcədən təsdiqi olmadan təşkil edildikdə və ya gimnastların beynəlxalq yarışlara göndərilməsi barədə AGF-yə əvvəlcədən məlumat verilmədikdə.
6.2. AGF-nin Nizamnaməsi, Safeguarding Qaydaları, Etika Qaydaları, Davranış Qaydaları, İntizam Qaydaları və digər qüvvədə olan qaydalarla müəyyən olunmuş vəzifələrin pozulması hallarında başlanılmış intizam prosedurunun nəticəsi olaraq İntizam Komissiyasının müvafiq qərarı əsasında, həmin qərarın icrasının təmin olunması məqsədilə kluba verilmiş tanınma statusu AGF tərəfindən ləğv edilə bilər.
6.3. Tanınma statusunun ləğv olunması barədə qərar klubun rəsmi qeydiyyat ünvanına göndərilir.
6.4. Tanınma statusu ləğv edilmiş klub, pozuntuların aradan qaldırılmasından və bu barədə yazılı şəkildə AGF-yə məlumat verilməsindən sonra yenidən müraciət hüququna malikdir. Bu zaman klub yeni müraciət prosedurundan tam keçməli və qiymətləndirməyə yenidən cəlb olunmalıdır.

## 7. Yekun müddəalar

7.1. Bu Qaydalar AGF-nin İcra Komitəsi tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir.
7.2. Qaydaların müddəalarına edilən hər hansı dəyişikliklər AGF-nin İcra Komitəsinin qərarı ilə həyata keçirilir və təsdiqləndiyi gündən sonra qüvvəyə minir.

*““Azərbaycan Gimnastika Federasiyası” İctimai Birliyinin ölkə ərazisində fəaliyyət göstərən idman klublarında gimnastika növlərinin qiymətləndirilməsi Qaydaları” na 1 nömrəli Əlavə*

# MÜRACİƏT FORMASI

## Klub haqqında ümumi məlumat

| | |
|---|---|
| Klubun tam adı | |
| Hüquqi şəxs statusu (MMC, İB, s.) | |
| VÖEN | |
| Qeydiyyat tarixi | |
| Hüquqi ünvan | |
| Faktiki ünvan (əgər fərqlidirsə) | |
| Klubun rəsmi internet səhifəsi (əgər varsa) | |
| Əlaqə nömrəsi | |
| Elektron poçt ünvanı | |
| Klub haqqında zəruri hesab edilən məlumatlar (əgər varsa) | |

## Klubun səlahiyyətli nümayəndəsi

| | |
|---|---|
| Ad, soyad, ata adı | |
| Vəzifəsi | |
| Əlaqə nömrəsi | |
| E-mail ünvanı | |
| Klubla səlahiyyət əlaqəsi (rəhbər, hüquqi nümayəndə və s.) | |

## Klubun fəaliyyət sahəsi

İdman zal(lar)ı barədə məlumat

| Zalın adı | Ünvanı | Sahəsi (m²) | Hündürlüyü (m) | Təchizat və texniki şəraitin qısa təsviri | Sahibliyi (mülkiyyət, icarə və ya digər) |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| **Klub heyəti** | | | | | |
| Məşqçi heyətinin sayı | | | | | |
| İdmançıların sayı | | | | | |
| İşçi heyətinin sayı | | | | | |
| **Məşçi heyəti** | | | | | |
| | Ad, soyad, ata adı | Lisenziya | İxtisas sənədi | | |
| 1 | | Hə/yox | Hə/yox | | |
| 2 | | Hə/yox | Hə/yox | | |
| 3 | | Hə/yox | Hə/yox | | |
| 4 | | Hə/yox | Hə/yox | | |
| 5 | | Hə/yox | Hə/yox | | |
| 6 | | Hə/yox | Hə/yox | | |
| 7 | | Hə/yox | Hə/yox | | |
| 8 | | Hə/yox | Hə/yox | | |
| 9 | | Hə/yox | Hə/yox | | |
| 10 | | Hə/yox | Hə/yox | | |
| **Xoreoqraf heyəti** | | | | | |
| | Ad, soyad, ata adı | İxtisas sənədi | | | |
| 1 | | Hə/yox | | | |
| 2 | | Hə/yox | | | |
| 3 | | Hə/yox | | | |
| 4 | | Hə/yox | | | |
| 5 | | Hə/yox | | | |
| **Tibb personalı** | | | | | |
| | Ad, soyad, ata adı | İxtisas sənədi | | | |
| 1 | | Hə/yox | | | |
| 2 | | Hə/yox | | | |
| 3 | | Hə/yox | | | |
| 4 | | Hə/yox | | | |
| 5 | | Hə/yox | | | |
| **Psixoloq(lar)** | | | | | |
| 1 | | Hə/yox | | | |
| 2 | | Hə/yox | | | |
| 3 | | Hə/yox | | | |
| 4 | | Hə/yox | | | |
| 5 | | Hə/yox | | | |
| **Safeguarding üzrə məsul şəxs (əgər varsa)** | | | | | |
| Ad, soyad, ata adı | Vəzifə | | | | |
| | | | | | |
| **Əlavə olunmalı sənədlər** | | | | | |
| 1. Nizamnamə | | | | | |
| 2. Rəhbərin şəxsiyyət vəsiqəsinin surəti | | | | | |
| 3. VÖEN | | | | | |
| 4. Məşqçi diplomlarının və lisenziyalarının surətləri | | | | | |
| 5. İdmançı siyahısı (yaş qrupları üzrə) | | | | | |
| 6. Zalın fotoşəkilləri | | | | | |
| 7. Etibarnamə (əgər rəhbər şəxs özü imzalamırsa) | | | | | |
| 8. Klub haqqında təqdimat (əgər varsa) | | | | | |
| 9. Digər sənədlər (əgər varsa) | | | | | |

İmza ______________________________

M.Y ______________________________

Ad, soyad, ata adı ________________________________

Vəzifə ________________________________

Tarix ________________________________

Gimnastika növləri üzrə məşqlərin keçirilməsi üçün istifadə olunan idman zalı və avadanlıq uşaqların təhlükəsizliyini, gimnastika növünün texniki tələblərini və metodiki prosesin keyfiyyətli icrasını təmin etməlidir. Avadanlıqların və zal şəraitinin uyğunluğu klubun fəaliyyətdə olduğu gimnastika növünə əsasən qiymətləndirilir. Bu məqsədlə aşağıdakı minimum texniki meyarlar müəyyən edilir.

Klub gimnastika növləri üzrə məşq prosesi, onun keçirildiyi məkan, alət və avadanlıqların risk baxımından qiymətləndirilməsi üzrə məsuliyyət daşıyır. Risk dəyərləndirilməsinin sağlamlıq və təhlükəsizlik baxımından həyata keçirilməsi mütləqdir.

## 1.1. Bütün gimnastika növləri üçün ümumi tələblər:

### 1.1.1 Zalın ölçüləri ilə bağlı ümumi tələblər

- *Məşq zamanı avadanlıqların sərbəst və təhlükəsiz şəkildə yerləşdirilməsinə, idmançıların rahat hərəkətinə şərait yaradılmalıdır;*
- *Məşq zamanı hər bir idmançı üçün minimum 2-4 kvadrat metr sərbəst sahə təmin edilməlidir.*

### *1.1.2 Təhlükəsizlik üzrə tələblər*

- *Zal və avadanlıq təhlükəsiz vəziyyətdə saxlanılmalı, mütəmadi yoxlanmalıdır;*
- *Məşqçilər bütün idmançıları görə biləcək mövqedə olmalıdırlar (görmə sahəsini məhdudlaşdıran maneələr olmamalıdır);*
- *Yeni hərəkətlər yalnız* uyğun şərait və nəzarət altında *tətbiq edilməlidir;*
- *Döşəmə, mat və avadanlıqlar müvafiq standartlara uyğun olmalı və rəsmi yoxlanışdan keçməlidir.*

### 1.1.3 İşıqlandırma və havalandırma ilə bağlı ümumi tələblər

- *Zal kifayət qədər təbii və ya süni işıqlandırma ilə (ən azı 300 lüks) təmin olunmalı, işıq mənbələri məşq prosesini çətinləşdirməməlidir;*
- *Havalandırma sistemi və ya pəncərələrlə təbii hava dövranı mümkün olmalıdır;*
- *Zalın temperatur rejimi uşaqların sağlamlığına uyğun səviyyədə saxlanılmalıdır.*

### 1.1.4 Döşəmə və örtüklə bağlı ümumi tələblər

- *Zalın döşəməsi zərbəni azaldan örtük ilə təmin olunmalıdır;*
- *Döşəmənin səthi bərabər, sürüşkən olmayan və zədə riskini minimuma endirən materialdan hazırlanmalıdır.*

## 2.1. Bir neçə gimnastika növü üzrə zalın ümumi texniki xüsusiyyətləri və avadanlıqlarla bağlı tələblər

**Bədii gimnastika, kişi və qadın idman gimnastikası, batut gimnastikası, tamblinq, akrobatika gimnastikası, aerobika gimnastikası, gimnastika hamı üçün**

- Gimnastika skamyası - səthi sürüşkən olmayan materialdan hazırlanmalı, kənarları yumşaq şəkildə yonulmalıdır. İstifadə zamanı yerdə sabit dayanmalı, hərəkət və yırğalanma müşahidə edilməməlidir;
- İsveç divarı - hündürlüyü yerdən ən azı 2.5 m məsafədə olmalıdır. Səthi hamar və tikan, qırıq hissələrdən azad olmalıdır, divara bərkidilmə nöqtələri möhkəm olmalıdır. Divarın ətrafında yumşaq döşəklər və ya matlar (qalınlıq minimum 5 sm olmaqla) yerləşdirilməlidir.

**Bədii gimnastika, qadın idman gimnastikası, akrobatika gimnastikası, aerobika gimnastikası, gimnastika hamı üçün**

- Xoreoqrafiya dəzgahı (hün. – 1 m) - təhlükəsizlik məqsədilə güzgülərin kənar hissələri qoruyucu çərçivə ilə təmin edilməlidir.

**Bədii gimnastika, qadın idman gimnastikası, akrobatika gimnastikası, aerobika gimnastikası, gimnastika hamı üçün**

- Səs avadanlığı - musiqi müşayiəti üçün keyfiyyətli audio sistem təmin edilməlidir. Səsin bərabər paylanmasını təmin edən dinamiklər zala nisbətən bərabər məsafədə yerləşdirilməlidir. Səs səviyyəsi tənzimlənə bilən olmalıdır. Elektrik kabelləri və naqillər təhlükəsiz şəkildə bərkidilməli, açıqda qalmamalıdır.

**Akrobatika gimnastikası, batut gimnastikası**

- Burulma kəməri olan yuxarıdan asılmış təhlükəsizlik qurğusu arzuolunandır.

**Kişi və qadın idman gimnastikası, akrobatika gimnastikası**

- Kanat
- Dayaq blokları

**Kişi və qadın idman gimnastikası, akrobatika gimnastikası, aerobika gimnastikası, tamblinq**

- Tullanma körpücüyü – ən azı 1 ədəd olmalıdır. Elastik metal yaylı konstruksiyadan və sürüşməyə qarşı üst örtükdən ibarət olmalıdır. Körpücük səthi deformasiyaya uğramadan eyni sıçrayış elastikliyini təmin etməlidir.

**Kişi və qadın idman gimnastikası, batut gimnastikası, tamblinq**

- Trampet

**Qeyd:** bu bənddə qeyd olunan avadanlıq və ləvazimatlar həm başlanğıc səviyyəli məşqlər, həm də yarışlarda gimnastlarla təmsil olunduqda tələb olunur.

## 2.1.2. Başlanğıc səviyyəli məqşlər üçün hər bir gimnastika növü üzrə avadanlıqlarla bağlı minimum tələblər cədvəli

**Bu cədvəldə göstərilənlərdən əlavə, 2.1.1. bəndində qeyd olunan avadanlıqlar da nəzərə alınmalıdır.**

| **Növlər** | **Zalın sahəsi** | **Tavan / minimum hündürlük** | **Məşq xalçasının ölçüsü / minimim qalınlığı** | **Təhlükəsizlik matları / minimum qalınlıq** | **Avadanlıq** |
|---|---|---|---|---|---|
| Bədii gimnastika | Qeyd olunan ölçüdə mat döşəmə və 2.1.-də qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | 6 m | 8x8 / 5 sm | 5 sm | **Mat döşəmə** (ən azı 1 ədəd).<br>**Top** - elastik rezin və ya sintetik polimer materialdan olmalı, səthi hamar və sürüşkən olmamalıdır. Səthində dərin cızıqlar və yapışqan izlər olmamalıdır. Top məşq zamanı formasını saxlamalı, deformasiyaya uğramamalıdır.<br>**Halqa** - plastik və ya taxta materialdan olmalı, elastik, eyni zamanda bərk olmalıdır. Səthi hamar, sınıq və çat olmadan, bərabər qalınlıqda olmalıdır. Halqa elastikliyini itirmədən təkrarlanan hərəkətlərə dözümlü olmalıdır.<br>**Lent** - materialı yüngül ipək və ya saten olmalıdır.<br>**İp** - uzunluğu idmançının boyuna uyğun tənzimlənməlidir. Ucları kip şəkildə bərkidilmiş, açılma və soyulma riski olmamalıdır.<br>**Gürzlər** - uzunluğunun minimum 40–50 sm olması arzuolunandır. Səthi hamar, çat və iti künclərsiz olmalıdır.<br>**Qeyd:** burada göstərilən alətlərin hər birindən ən azı 2 ədəd olmalıdır. |
| Kişi idman gimnastikası | Qeyd olunan ölçüdə mat döşəmə və 2.1.-də və bu cədvəldə qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | 5 m (halqalar alətinin çərçivə konstruksiyası olmadıqda) | 8x8 / 5 sm | 10 sm - tullanma və eniş zonaları | **Mat döşəmə** - ən azı 1 ədəd.**Dəstəli atın məşq qurğusu**, **döşəmə səviyyəli paralel qollar**, 1 ədəd paralel qollar aləti, **aşağı hündürlüklü dəstəli at**, **"idman keçisi", göbələk** (səthi yumşaq və sürüşkən olmayan materialla örtülməli, kənarları iti olmamalıdır; dayaq hissəsi sabit, altı rezin təbəqə ilə möhkəmləndirilməlidir; ətrafında yumşaq təhlükəsizlik matı yerləşdirilməlidir).<br>**Qeyd:** burada göstərilən alətlərin hər birindən ən azı 1 ədəd olmalıdır. Məşq üçün hündürlüyü tənzimlənən halqaların olması arzuolunandır (çərçivə konstruksiyası olmaya bilər). |

| | | | | | |
|---|---|---|---|---|---|
| Qadın idman gimnastikası | Qeyd olunan ölçüdə mat döşəmə və 2.1.-də və bu cədvəldə qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | 5 m | 8x8 / 5 sm | 10 sm - tullanma və eniş zonaları | **Mat döşəmə** - ən azı 1 ədəd olmalıdır.<br>**Döşəmə səviyyəli gimnastika tiri**, **"idman keçisi"**, **döşəmə səviyyəli paralel qollar**.<br>**Qeyd:** burada göstərilən alətlərin hər birindən ən azı 1 ədəd olmalıdır. |
| Batut gimnastikası | 2.1.-də və bu cədvəldə qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | Risk dəyərləndirilməsindən asılıdır | | 10 sm | **Mat döşəmə** - ən azı 1 ədəd.<br>**Uşaqlar üçün nəzərdə tutulmuş batut ən azı 2 ədəd olmalıdır.**<br>Hava ilə doldurulan idman zolağı, sürətli zolaq (Fast Track), sığorta blokları |
| Tamblinq | 2.1.-də və bu cədvəldə qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | Risk dəyərləndirilməsindən asılıdır | | 10 sm | **Mat döşəmə** - ən azı 1 ədəd.<br>Hava ilə doldurulan idman zolağı, sürətli zolaq (Fast Track), sığorta blokları |
| Akrobatika | Qeyd olunan ölçüdə mat döşəmə və 2.1.-də qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | 5 m | 8x8 / 5 sm | 10 sm – hərəkət və eniş zonaları | **Mat döşəmə** - ən azı 1 ədəd.<br>Gimnastika kamerası – minimum 1 ədəd olmalıdır. Qurğu zalın hərəkət zonasını əhatə edən bucaq altında yerləşdirilməli və təhlükəsizlik tələblərinə uyğun quraşdırılmalıdır. |
| Aerobika | Qeyd olunan ölçüdə mat döşəmə və 2.1.-də qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | 3 m | 8x8 / 5 sm | 5 sm - tullanma və eniş hərəkətlərinin icra olunduğu hissə | **Mat döşəmə** - ən azı 1 ədəd. |
| Gimnastika hamı üçün | Qeyd olunan ölçüdə mat döşəmə və 2.1.-də qeyd olunan avadanlıqlar sərbəst şəkildə yerləşməlidir. | 3 m | 8x8 / 5 sm | | **Mat döşəmə** - ən azı 1 ədəd.<br>**Qeyd:** gimnastika hamı üçün qeyri-yarış növüdür. Lakin bu növ üzrə müxtəlif tədbirlər (nümunəvi çıxışlar, festival və digər tədbirlər) keçirilir. Gimnastika hamı üçün növü üzrə başlanğıc səviyyədən sonrakı mərhələlərdə də texniki tələblər eyni olaraq qalır. |

## 2.1.3. Yarışlarda gimnastlarla təmsil olunduqda, hər bir gimnastika növü üzrə avadanlıqlarla bağlı minimum tələblər cədvəli

**Bu cədvəldə göstərilənlərdən əlavə, 2.1.1 bəndində qeyd olunan avadanlıqlar və 2.1.2. bəndində qeyd olunan cədvəl də nəzərə alınmalıdır.**

| Növlər | Zalın sahəsi | Tavan / minimum hündürlük | Məşq xalçasının ölçüsü / minimim qalınlığı | Təhlükəsizlik matları / minimum qalınlıq | Avadanlıq |
|---|---|---|---|---|---|
| Bədii gimnastika | 20x14 m | 6 m | 13x13 / 5 sm | 5 sm | **Bədii gimnastika xalçası** (ən azı 1 ədəd). Səthi sürüşkən olmayan, elastik və zərbəni udan materialdan hazırlanmalıdır. Birləşmə yerləri açıq qalmaqla zədə riski yaratmamalıdır. Alt hissəsi sürüşməyə qarşı təbəqə ilə təmin edilməlidir. |
| Kişi idman gimnastikası | 18x30 m | 5 m (halqalar alətinin konstruksiyası olmadan) | 14x14 | 10 sm – tullanma və eniş zonaları | **Xüsusi idman gimnastikası xalçası** - elastik əsaslı və zərbəni udan səthlə təchiz edilməlidir. Səthi bərabər, sürüşkən olmayan materialdan olmalı, zədə riski yaratmamalıdır. Ətrafında ən azı 1 m təhlükəsizlik zonası təmin edilməlidir. Birləşmə yerləri boşluqsuz və səth bərabər olmalıdır.<br>**Dəstəli at** - hündürlüyü minimum 1.15 m olmalı, bədəni elastik, lakin sabit əsaslı materialdan hazırlanmalıdır. Dəstələrin səthi hamar, əl tutmaq üçün uyğun diametrdə (3–5 sm) olmalıdır. Ətrafında yumşaq döşəklər və ya təhlükəsizlik matları (qalınlıq minimum 10 sm) yerləşdirilməlidir.<br>**Dayaqlı tullanma** - yarışlarda gimnastlarla təmsil olunduqda ən azı 1 ədəd olmalı və tənzimlənə bilən konstruksiyaya malik olmalıdır. Stolun səthi sürüşkən olmayan, elastik və zərbəni udan materialdan hazırlanmalıdır. Konstruksiya sabit və dayanıqlı olmalı, hərəkət zamanı titrəmə və yerdəyişmə müşahidə edilməməlidir.<br>**Paralel qollar** - qollar tənzimlənən hündürlükdə olmalı (1.5–2.0 m aralığında), səthi hamar və sürüşkən olmayan materialdan hazırlanmalıdır. Dayaqlar sabit olmalı, hərəkət zamanı titrəmə müşahidə edilməməlidir. Eniş və hərəkət zonası yumşaq döşəklərlə (qalınlıq minimum 10 sm) təmin olunmalıdır.<br>**Halqalar** - minimum 1 ədəd cütlük olmalıdır. Halqaların çərçivə konstruksiyası olduqda, tavanın hündürülüy 8 m aşağı olmamalı, halqaların hündürlüyü yerdən 6,30 m olmalı, asqı qayışları möhkəm və tənzimlənən uzunluqda olmalıdır. Halqalar taxta və ya yüksək möhkəm sintetik materialdan hazırlanmalı, səthi hamar və sürüşkən olmamalıdır. Asqı konstruksiyası sabit |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | olmalı, istifadə zamanı yellənmə və burulma riski minimuma endirilməlidir. Ətrafında zərbəni udan döşəklər yerləşdirilməlidir.<br>**Turnik** - yerdən hündürlüyü minimum 2,8 m olmalı, metal materialdan hazırlanmalıdır. Səthi hamar və pasdan qorunmuş olmalıdır. Turnik dirəkləri sabit bərkidilməli, yellənmə və boşalma riski olmamalıdır. Ətrafında ən azı 1 m təhlükəsizlik zonası və zərbəni udan matlar yerləşdirilməlidir.<br>**Tənzimləyici turnik** - yerdən hündürlüyü tənzimlənə bilən olmalı, metal materialdan hazırlanmalıdır. Səthi hamar və pasdan qorunmuş olmalıdır. Turnik dirəkləri sabit bərkidilməli, hündürlüyün dəyişdirilməsi zamanı titrəmə və boşalma riski olmamalıdır.<br>**Qeyd:** burada göstərilən alətlərin hər birindən ən azı 1 ədəd olmalıdır. Hər bir alət üçün mat döşəmə mövcud olmalıdır. |
| Qadın idman gimnastikası | 18x30 m | 5 m | 14x14 | 10 sm - tullanma və eniş zonaları | **Xüsusi idman gimnastikası xalçası** - elastik əsaslı və zərbəni udan səthlə təchiz edilməlidir. Səthi bərabər, sürüşkən olmayan materialdan olmalı, zədə riski yaratmamalıdır. Ətrafında ən azı 1 m təhlükəsizlik zonası təmin edilməlidir. Birləşmə yerləri boşluqsuz və səth bərabər olmalıdır.<br>**Müxtəlif hündürlüklü qollar** - qolların hündürlüyü tənzimlənə bilən olmalıdır. Səthləri hamar, sürüşkən olmayan materialdan (taxta və ya sintetik) hazırlanmalıdır. Konstruksiya sabit olmalı, titrəmə və hərəkət zamanı boşalma riski olmamalıdır. Eniş zonası qalınlığı minimum 10 sm olan yumşaq təhlükəsizlik matları ilə əhatə olunmalıdır.<br>**Gimnastika tiri** - uzunluğu 5 m, hündürlüyü 1.25 m olmalıdır. Səthi sürüşkən olmayan, yumşaq materialla örtülməli, iti künclərdən azad olmalıdır.<br>**Dayaqlı tullanma** - yarışlarda gimnastlarla təmsil olunduqda ən azı 1 ədəd olmalı və tənzimlənə bilən konstruksiyaya malik olmalıdır. Stolun səthi sürüşkən olmayan, elastik və zərbəni udan materialdan hazırlanmalıdır. Konstruksiya sabit və dayanıqlı olmalı, hərəkət zamanı titrəmə və yerdəyişmə müşahidə edilməməlidir.<br>**Qeyd:** burada göstərilən alətlərin hər birindən ən azı 1 ədəd olmalıdır. Hər bir alət üçün mat döşəmə mövcud olmalıdır. |
| Batut gimnastikası | 14x20 m | Risk dəyərləndirilməsindən asılıdır | | 10 sm - batut və hərəkət zonalarının ətrafı. Matların birləşmə hissələri boşluqsuz olmalı və hərəkət zamanı | **Batut** - FIG standartlarına uyğun ölçüdə təxminən 5.1 × 3.0 m olmalıdır. Elastik metal karkas və yüksək sıçrayış təmin edən tor səthdən ibarət olmalıdır. Səthi bərabər gərilmiş, tor elastikliyini bərabər paylamalıdır. Batut sabit əsas üzərində quraşdırılmalı, hərəkət və yellənmə riski olmamalıdır.<br>**Hərəkət zolağı** - uzunluğu ən azı 10 m, eni 2 m, qalınlığı 20 sm olmalıdır. Zalın döşəməsi batut avadanlıqlarının sabit quraşdırılmasına imkan verməlidir. Batut avadanlıqları divarlardan və digər maneələrdən ən azı 2 m məsafədə quraşdırılmalıdır. Hava ilə doldurulan elastik materialdan hazırlanmalı, səthi sürüşkən olmayan örtüklə təmin edilməlidir. Hərəkət zolağı bərkidilmiş, istifadədən əvvəl tam şişirdilmiş vəziyyətdə olmalıdır.<br>**Qeyd:** burada göstərilən alətlərin hər birindən ən azı 1 ədəd olmalıdır. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | yerindən tərpənməməlidir. | |
| Tamblinq | 10x20<br><br>Tamblinq cığırı olduqda - 18x35 m | Risk dəyərləndirilməsindən asılıdır | | 10 sm | **1 ədəd tamblinq cığırının olması arzuolunandır.** Mövcud olduğu halda - uzunluğu ən azı 25 m, eni 2 m, qalınlığı 10-20 sm aralığında olmalıdır; elastik əsaslı materialdan hazırlanmalı, səthi sürüşkən olmayan və zərbəni udan xüsusiyyətə malik olmalıdır; cığır sabit və bərabər səth üzərində yerləşdirilməlidir; eniş zonası (döşək) - ən azı 1 ədəd olmalıdır, ölçüləri 2×4 m, qalınlığı isə ən azı 30 sm olmalıdır; eniş döşəyi zərbəni effektiv şəkildə udan elastik materialdan hazırlanmalı və hərəkət zamanı yerindən tərpənməməlidir; idmançının yaşına və hazırlıq səviyyəsinə uyğun elastiklik tənzimlənə bilməlidir; döşəmədə qaçış hissəsinin uzunluğu 10 m, tullanış hissəsi 25 m, eniş hissəsi standart olaraq, 3x6 m, döşəmənin hündürlüyü 30 sm olmalıdır; zalın döşəməsi sabit və bərabər səthə malik olmalı, tamblinq cığırının və eniş zonasının təhlükəsiz quraşdırılmasına imkan verməlidir. |
| Akrobatika | 20x15 m | 5 m | 12x12 | 10 sm - hərəkət və eniş zonaları | **Xüsusi idman gimnastikası döşəməsi** - elastik əsaslı və zərbəni udan səthlə təchiz edilməlidir. Səthi bərabər, sürüşkən olmayan materialdan olmalı, zədə riski yaratmamalıdır. Ətrafında ən azı 1 m təhlükəsizlik zonası təmin edilməlidir. Birləşmə yerləri boşluqsuz və səth bərabər olmalıdır. |
| Aerobika | 18x18 m | 3 m | 12x12 | 5 sm - tullanma və eniş hərəkətlərinin icra olunduğu hissə | **Xüsusi aerobika gimnastikası döşəməsi** - döşəmə taxta (səthi sürüşkən olmayan və zərbəni udan elastik materialdan hazırlanmalıdır), bərabər və deformasiya olunmamış səth təmin edilməlidir. Döşəmədə deformasiya və boşluq olmamalıdır. |